# Azərbaycanın multikultural dəyərləri - örnək modeli

Xalqların mədəniyyət və adət-ənənələri onların milli mənəvi dəyərlər sistemini formalaşdırır. Dini inanc və ideoloji baxışların bu dəyərlər sisteminə təsiri böyük olub. Xalqların fərqli mədəniyyətlərə sahib olduğu dünyada ziddiyyətlər həmişə özünü göstərib. Məsələn, Qərbdə və Amerikada açıq-saçıq həyat tərzi azad cəmiyyətin sivil hüquqları kimi tərənnüm olunursa, Şərqdə, xüsusilə də İslam ölkələrində insanın müstəqilliyi cismani sərbəstlikdə deyil, toxunulmazlıq, abır, həya, ismət kimi mənəvi-əxlaqi keyfiyyətlərin qorunma azadlığı ilə ölçülür. Lakin sivil cəmiyyətlərdə mənəvi dəyərlər deyiləndə ləyaqət, qürur, nəciblik, qarşılıqlı hörmət, ədalət, anlayış kimi insani keyfiyyətlər başa düşülür və bu, xalqları, cəmiyyətləri bir-birinə yaxınlaşdıran ortaq xüsusiyyətlər kimi qəbul edilir. Əfsuslar olsun ki, tarixə nəzər yetirsək, ideologiyasını məkrli ambisiyalar üzərində quran ayrı-ayrı dövlətlərin, dini hakimiyyətlərin fərqli sivilizasiyaları, toplumları özlərinə tabe etmək kimi mənfur niyyətlərinin də olduğunun fərqinə varırıq. Bunu daha çox birincilərin başlatdığı xristian-müsəlman, xristian-yəhudi qarşıdurmalarında və qaradərililərə qarşı ayrı-seçkilikdə görmək mümkündür.

Antisemitizm, islamofob və ksenefob əhval-ruhiyyənin yaradıcılarından olan Roma Papası II Urban 1096-cı ildə müsəlmanların sahib olduğu torpaqları ələ keçirmək üçün səlib (xaç) yürüşlərinin əsasını qoymaqla sivilizasiyalar arasında kin, nifaq toxumu səpərək münasibətləri qan düşmənçiliyinə qədər gətirib çıxarıb. Müasir dövrdə də bir sıra Qərb dövlətlərinin qeyri-xristian dövlətlərə, xalqlara qarşı dini və irqi fərqliliklər zəminində ideoloji müharibə apardığının şahidiyik. Bu, o deməkdir ki, orta əsrlərdə başlayan səlib yürüşləri başqa formada bu gün də davam etməkdədir: Avropada və Amerika Birləşmiş Ştatlarında hələ də bəzi ictimai və siyasi fiqurlar müsəlmanlar və qaradərililəri terrorçu kimi təqdim edir, təqiblərə və təzyiqlərə məruz qoyur, haqlarını kobud şəkildə pozur, hətta hüquq mühafizə orqanlarının əməkdaşları həmin şəxsləri vəhşicəsinə döyür və amansızlıqla qətlə yetirirlər. Hələ 1963-cü ildə Qərbin müstəmləkə siyasətindən qurtularaq müstəqilliyini elan edən Keniya dövlətinin qurucusu Como Kenyatta belə bir fikir söyləyib: “Avropalılar bizim yerlərə gələndə onların “İncil”i, bizim isə torpaqlarımız var idi. Onlar gələn kimi bizə gözlərimizi yumub dua etməyi öyrətdilər. Gözlərimizi açanda isə gördük ki, “İncil” bizim, torpaqlarımız isə onların əlindədir”.

Bu, zaman-zaman bir sıra Qərb ölkələrinin strategiyası olmuşdur. Onlar bu gün də müstəqil dövlətləri demokratiya və din pərdəsi altında terror yuvasına, qarşıdurma məkanına çevirməyə davam edirlər. Onlar həqiqətən də dini və irqi ayrı-seçkiliyin qarşısını almağa çalışsaydılar, ilk növbədə öz ölkələrində qeyri-millətlərə, xüsusilə müsəlman və qaradərililərə qarşı baş verən polis zorakılığını, insanlıq əleyhinə vəhşilikləri aradan qaldırmaq üçün ciddi tədbirlər görərdilər.

ABŞ-ın müxtəlif ştatlarında müsəlman və qaradərili vətəndaşlar polis zorakılığına qarşı dəfələrlə etiraz aksiyaları keçiriblər. Onların yeganə tələbi hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən irqi və dini zəmində amansız qətllərin törədilməsinin qarşısının alınmasıdır. Vəziyyət isə heç cür dəyişmir. Bu gün yenə də qaradərililərin, müsəlmanların vəhşicəsinə döyüldüyü və öldürüldüyünü, onlara qarşı planlı şəkildə hücumlar edildiyini xarici mətbuat vasitəsilə izləyirik. Keçən il ABŞ-ın Şimali Karolina ştatında müsəlman ailəsinin yaşadığı mənzil silahlı şəxslərin hücumuna məruz qalıb. Evi güllə yağışına tutan cinayətkarlar bir qadının yaralanmasına səbəb olublar. Lakin dövlətin rəsmi şəxsləri hadisənin motivində İslama nifrət olduğunu istisna ediblər. Halbuki həmin ərəfədə sözügedən ştatda 3 müsəlman tələbə də güllələnərək qətlə yetirilib. Cənubi Karolina ştatında isə polis silahsız qaradərili vətəndaşa 8 dəfə atəş açaraq amansız qətlin səbəbkarı olub. Əslində Amerika və Qərb ölkələrində dini və irqi zəmində hadisələr ilk dəfə deyil ki, baş verir.

Qəribədir ki, bu tip cinayətlər miqyasından asılı olmayaraq terror, qətliam və soyqırımı kimi qəbul olunmur. Səbəb isə hadisəni törədənlərin xristian etiqadlı şəxslər olmasıdır. Sanki Avropa və ABŞ-da belə bir hal formalaşıb ki, inanc yeri xristian dini olan şəxsin törətdiyi hadisə qeyri-ixtiyari baş verir və mütləq mahiyyətində psixoloji problem var. Məgər “psixoloji problem” terrorizmə yol açan əsas amil deyilmi? Hansı ağlı başında olan şəxs günahsız insanları qətlə yetirər?

Başqa bir fakta diqqət yetirək. Keçən il Fransada baş verən təyyarə qəzasında ikinci pilot Andreas Lubitzin qəzanı bilərəkdən törətdiyinə dair faktlar aşkarlansa da, rəsmi şəkildə hadisə terror hücumu kimi qiymətləndirilmədi. Yenə də qəzanın səbəbkarının son zamanlar psixoloji sarsıntı keçirməsi hadisənin baş verməsində əsas ehtimallardan biri hesab olunub. Əgər 154 nəfər sərnişinin həyatına son qoyan qəzanın mərkəzində müsəlman olsaydı, heç şübhəsiz, Qərb və Amerikanın islamofob dairələri təkcə hadisəni deyil, ümumilikdə İslam dünyasını yenidən terrorçuluqda günahlandıracaqdı.



Lakin sirr deyil ki, dünyada terrorizm adlı bəla var və xüsusilə müsəlmanlar bundan əziyyət çəkirlər. Demək olar ki, Yaxın Şərq və Afrika dövlətlərində dinc və günahsız insanlar kütləvi şəkildə qətlə yetirilir. Bütün bunların qarşısını almaq əvəzinə əksər dünya gücləri hadisələrə tərəfli yanaşır, ikili standartlar tətbiq edirlər. Parisdə “Charlie Hebdo” jurnalının redaksiyasına basqın hadisəsində isə 14 nəfərin öldürülməsi dinindən və irqindən asılı olmayaraq bütün Avropanı ayağa qaldırdı. Dünyanın müxtəlif ölkələrinin liderləri Parisdə həmin faciənin anım mərasimini keçirdi. Lakin bu dəhşətli hadisədən öz məkrli məqsədləri naminə - müsəlmanlara qarşı nifrət hissini artırmaq üçün istifadə edənlər də az olmayıb. Nəticədə Avropanın müxtəlif nöqtələrində antiislam kampaniyaları geniş vüsət almağa başlayıb.

Bu hadisədən bir neçə gün sonra isə Nigeriyada “Boko Haram” terrorçularının 2 minədək insanı öldürməsi heç bir xristian ölkəsində zərrə qədər narahatlıq yaratmadı. Yaxud demək olar ki, hər gün Yaxın Şərqdə onlarca insan terrorun qurbanına çevrilir. Dünya isə susmağa üstünlük verir. Bəs Qərbin və Amerikanın himayə etdiyi, öz toplumlarına qarşı hər hansı bir kiçik hadisə baş verən zaman dərhal ayağa qalxan hüquq müdafiə institutları harada qalıb? Niyə bəşər övladına qarşı edilən haqsızlıqlar qarşısında susurlar, səslərini çıxarmırlar? Yoxsa onların günahı özlərini ali təbəqə sayan avropalılarla eyni irqdən olmamalarıdır? O zaman əsl terrorçular kimlərdir? Tarix boyu müsəlmanları, yəhudiləri hər yerdə sıxışdıraraq kütləvi qətllər törədən Qərb fundamentalistləri, yoxsa bütün bunlara baxmayaraq dünyanı sülhə, dostluğa, əməkdaşlığa çağıran türklər və digər müsəlmanlar?

Bu gün Avropa ölkələrində dini və irqi ayrı-seçkilik zəminində cinayət halları durmadan artmaqdadır. Bu ölkələrdə tolerantlıq yerini getdikcə daha çox dözümsüzlüyə verir. Hücumlar təkcə islamofob, ksenefob və antisemitist mahiyyət daşımır, eyni zamanda xalqları bir-birindən ayırmağa xidmət edir.

Faşist Almaniyasının İkinci Dünya Müharibəsində yəhudilərə qarşı törətdiyi soyqırımı bu gün dünyada insanlıq əleyhinə ən böyük faciələrdən biri kimi anılmaqdadır. Lakin görünən odur ki, dünya birliyi hələ də bu cür hadisələrdən nəticə çıxara bilməyib, rasizm dalğası müasir dövrümüzə də nüfuz edərək sistemli xarakter alıb. Elə son vaxtlar Fransanın Tuluza şəhərindəki yəhudi məktəbinə qarşı həyata keçirilən hücumda 1 kişi və 3 yəhudi uşağı öldürülüb, Strasburq şəhərində yəhudi qəbiristanlığına hücum nəticəsində 100-dək yəhudi məzarı dağıdılıb, Belçikanın paytaxtı Brüsseldəki yəhudi muzeyinə hücum zamanı 4 nəfər öldürülüb.

Avropa İttifaqı Təməl Hüquqlar Agentliyinin araşdırmalarına görə, 2013-cü il ərzində Belçika, Fransa, Almaniya, İtaliya, İsveç, Böyük Britaniya kimi ölkələrdə rəyi soruşulanların 75 faizi antisemitizm hallarının artdığını deyib. Yəhudi olduğu üçün küçəyə çıxmağa qorxduğunu deyənlərin sayı isə 50 faizi təşkil edib.

Böyük dövlətçilik tarixinə malik, müstəqilliyini 24 ildir bərpa edən gənc və müasir Azərbaycan dövləti və onun xalqı bu gün sivilizasiyaları bir-birinə yaxınlaşdırmaq, fərqli adətlərə, dini baxışlara sahib cəmiyyətlərlə mədəni əlaqələri daha da gücləndirmək, onları tolerantlıq, humanizm kimi əxlaqi-mənəvi keyfiyyətlərlə bütövləşdirmək üçün genişmiqyaslı fəaliyyət aparır. Ölkəmiz bütöv bəşəriyyət üçün dinlərarası və mədəniyyətlərarası dialoq, düşüncə mərkəzi rolunu oynayır.

2014-cü ildə azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın mədəni, dini və dil müxtəlifliyinin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyanın humanist dəyərlər beşiyi kimi tanıtmaq, mövcud multikultural modelləri tədqiq və təşviq etmək üçün Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Dünyada ilk və yeganə olan bu mərkəz bir daha sübut edir ki, multikultural və tolerant dəyərlər keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda yaşam tərzidir. Bu fədakarlığın əvəzində isə dövlətimizi gözü götürməyən, onun uğurlarına qısqanclıqla yanaşan, həyata keçirmək istədiyi xoşməramlı niyyətlərə mane olmağa çalışan islamofob və ksenefob dairələr ölkəmizə qarşı qarayaxma kampaniyaları aparır, xarici və daxili əlaltıları vasitəsilə təzyiq göstərməyə, dünyada artan nüfuzuna xələl yetirməyə çalışırlar. Lakin Azərbaycan Prezidenti İlham Əliyev dünyada yaşanan iqtisadi, siyasi və hərbi böhranın daha da dərinləşdiyi 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etməklə dünya ictimaiyyətinə daha bir vacib mesaj göndərmiş oldu. Bu, o deməkdir ki, Azərbaycan dünən və bu gün olduğu kimi, gələcəkdə də bütün maneələri aşaraq öz məqsəd və məramına sadiq qalacaq, sivilizasiyalar arasında barışdırıcı qüvvə rolunu oynamağa davam edəcək.

**Nəriman HƏSƏNOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.**